# AQRAR UNİVERSİTETDƏ QURTULUŞ GÜNÜ QEYD EDİLDİ






Azərbaycan Dövlət Aqrar Universitetində 15 iyun — Milli Qurtuluş Günü münasibətilə təntənəli bayram tədbiri keçirilmişdir. Universitetin professor-müəllim heyətinin, tələbələrin və şəhər ictimaiyyətinin iştirakı ilə gerçəkləşən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qeyd etdi ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insan — Heydər Əliyevdir. Gəncədə 1993-cü ilin iyununda Surət Hüseynovun rəhbərlik etdiyi qiyamı xatırladan rektor ölkənin fəlakətlə qarşılaşdığını vurğuladı. Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu böyük şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə gəldi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. İndi inamla deyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını yox olmaq təhlükəsindən qurtarmaqda idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir! Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı.

Daha sonra digər natiqlər ulu öndərin tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağından, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail olmasından söz açdılar. Tədbirdə ulu öndərin xatirəsinə həsr olunan filmə baxıldı. Sonda tələbələrin hazırladıqları ədəbi-bədii kompozisiya və konsert proqramı iştirakçılar tərəfindən rəğbətlə qarşılandı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**